# “Vaqner” hərbi qrupu Qarabağı Azərbaycan torpağı sayır

## Onlar Ermənistanın tərəfindən döyüşməyəcəklərini bəyan edirlər

**Dünyada ən böyük özəl hərbi qruplaşma olan “Vaqner”in döyüşçülərinin Suriya, Ukrayna, Liviya, MAR, Sudan, Mozambik kimi ölkələrdə münaqişələrdə iştirakı məlumdur. Xarici mətbuatda bu qruplaşmanın muzdlularının Qarabağ cəbhəsində separatçılar tərəfindən savaşması barədə ehtimallar səslənib.**





Lakin həmin hərbi birləşmənin sahibi rusiyalı milyarder, iş adamı Yevgeni Priqojin bu informasiyaları qətiyyətlə təkzib edib. Həmçinin Dağlıq Qarabağda başlanan müharibə və “Vaqner”in bu müharibədə Ermənistan tərəfindən iştirakı ilə bağlı fikirlərini bildirib.

Onun sözlərinə görə, Qarabağda baş verənlərin bilavasitə səbəbkarı Ermənistanın baş naziri, çox anlaşılmaz və çox təhlükəli oyunlar oynayan Nikol Paşinyandır. “Paşinyan xeyli vaxtdır ki, Qərbə meyillənib, Qərbin əmrlərini yerinə yetirir və Rusiyanı aldatmaq istəyir. Mənim mövqeyim konkret və açıqdır. Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Ermənilərin “soyqırım”la bağlı dedikləri də mənimçün o qədər maraqlı deyil”, - deyə o bildirib.

“Vaqner”in döyüşçülərinin Ermənistan tərəfindən müharibədə iştirakına gəlincə Y.Priqojin deyib: “Rusiyanın Qarabağa hərbçi, yaxud özəl hərbi şirkətin silahlısını yollamaq üçün hüquqi əsası yoxdur. Çünki, dediyim kimi, Qarabağ Azərbaycan ərazisidir. Gələk Türkiyə məsələsinə... Türkiyə Ermənistan sərhədlərini keçməməklə Qarabağdakı proseslərə müdaxilə edə bilər. Çünki beynəlxalq hüquq buna imkan verir. Rəcəb Tayyib Ərdoğanın öz dövlətinin və xalqının maraqları naminə etdikləri heç bir halda, ermənilərin dedikləri kimi, “işğal” və ya “hərbi əməliyyat” deyil”.

***Rəşad CƏFƏRLİ, “Azərbaycan”***

Azərbaycan.- 2020.-8 oktyabr.- S.12.